


Ölkəmizi tanıyaq




# Səbailli məktəblilər qədim Gəncəyə yollanıblar

*Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə reallaşan, gənclərin və yeniyetmələrin vətənpərvərlik tərbiyəsinin daha da yüksəldilməsində, dünyagörüşünün formalaşmasında, ölkəmizin tarixinin, mədəniyyətinin, adət-ənənələrinin, müstəqillik illərində əldə edilmiş nailiyyətlərin dərindən öyrənilməsində mühüm rol oynayan "Ölkəmizi tanıyaq" devizi ilə məktəblilərin respublikamızın müxtəlif bölgələri ilə tanışlığı üçün təşkil olunmuş maarifləndirici tur-aksiyası çərçivəsində Səbail rayonunun təhsildə, idmanda və oxuduqları tədris müəssisəsinin ictimai həyatında fərqlənən 40 nəfər şagirdi Gəncə-Şəmkir-Göygöl marşrutu ilə yola salınıblar.*




Məktəblilərin yola salınması ilə bağlı Səbail Rayon İcra Hakimiyyətində mərasim təşkil olunub. Əvvəlcə iştirakçılar ümummilli liderin büstü önünə tər güllər düzüb, dahi rəhbərin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Səbail Rayon İcra Hakimiyyəti başçısının müavini Abit Əliyev iştirakçıları salamlayaraq Heydər Əliyevin yaradıcısı olduğu müasir Azərbaycanın nailiyyətləri, ulu öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin qətiyyəti və iradəsi sayəsində bu gün ölkəmizdə xalq təsərrüfatının bütün sahələrində əldə olunan nailiyyətlərdən, ölkə rəhbərinin rəhbərliyi ilə həyata keçirilən dinamik sosial-iqtisadi inkişafdan, yeni qlobal layihələrdən, gənc nəslə göstərilən dövlət qayğısından, gənclərin hərtərəfli inkişafı üçün yaradılan şəraitdən danışıb.

Toplantıda çıxış edən Səbail RİH-in İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini İsrafil Kərimov rayonda son 4 il ərzində təşkil olunan tur-aksiyalar barədə məlumat verib. Bildirilib ki, aksiyalar çərçivəsində ümumilikdə 230 məktəbli Lənkəran-Masallı-Astara, iki dəfə Naxçıvan və bir dəfə Gəncə-Şəmkir-Göygöl marşrutu üzrə gəzintidə olub. Eyni zamanda Səbail RİH-in əməkdaşları 2 ildir ki, tur-aksiya çərçivəsində Naxçıvandan Bakıya gələn yeniyetmələrin paytaxtın görməli yerləri, muzey və sərgi salonları ilə tanışlıqları işində yaxından iştirak ediblər. Turun keçirilməsi ilə bağlı bütün təşkilati məsələlər həll olunub, səfərdə şagirdləri dörd müəllim və bir həkim müşayiət ediblər.

Tədbirdə çıxış edənlər bildiriblər ki, bu layihənin həyata keçirilməsi ölkə gənclərinin vətənpərvərlik, tarixi-mədəni irsimizə hörmət ruhunda tərbiyə olunması, məktəblilərin dünyagörüşünün daha da zənginləşməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Tur-aksiya ölkəmizin tarixinin, mədəniyyətinin, adət-ənənələrinin, müstəqillik illərində əldə edilmiş nailiyyətlərin dərindən öyrənilməsində, tədrisdə qazanılan nəzəri biliklərin möhkəmləndirilməsində mühüm amillərdən biri olacaq və səfərin xoş təəssüratları şagirdlərin mənəvi zənginliyini daha da artıracaq.

Tur-aksiya iştirakçıları dörd gün ərzində Gəncə şəhərində Cavadxan məqbərəsi, Cümə məscidi, Şah Abbas məscidi, Çökək hamam, Xan bağı, Qədim Qala divarları, "İmamzadə" kompleksi, Comərd Qəssab türbəsi, Nizami Gəncəvinin məqbərəsi, Amfiteatr, Nizami Gəncəvi adına mərkəz və Gəncə Avtomobil Zavoduna, Şəmkir rayonunda "Orta əsr Şəmkir şəhəri", "Abidələr" parkına, Alman kilsəsi, "İstiqlal" parkı və "Nəfis çörək zavodu"na, Göygöl rayonunda Alman kirxası, sonuncu alman Viktor Klaynın ev-muzeyinə baxış keçirəcək, Hacıkənd qəsəbəsinə və Göygöl Milli Parkına ekskursiya edəcəklər. Onlar həm də səfər çərçivəsində təşkil olunacaq intellektual oyunlarda və "IDEA" İctimai Birliyi xətti ilə keçiriləcək ağacəkmə kampaniyalarında iştirak edəcəklər.

***Elçin CƏFƏROV, "Azərbaycan"***